**Lənkəranda “Ağ Saray” şadlıq evində mənşəyi məlum olmayan alkoqollu içkilərin aşkarlanmasına dair məlumat**

**(7 aprel 2026)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Lənkəran şəhəri, Füzuli küçəsində fəaliyyət göstərən, Ağayev Əli Hacıağa oğluna məxsus “Ağ Saray” şadlıq evində yoxlama keçirib.
Baxış zamanı normativ hüquqi aktların tələblərinin pozulduğu aşkarlanıb. Belə ki, qeydiyyatdan keçməmiş istehsalçı tərəfindən istehsal olunan və etiket məlumatlarına dair tələbləri pozulmuş “Organic Ultra” əmtəə nişanlı alkoqollu içkilərin toy şənliyində istifadə olunmasının qarşısı alınıb.
Faktla bağlı inzibati protokol tərtib edilib, nümunələr götürülərək laborator müayinələrə cəlb olunub. Məhsulların istifadəsi məhdudlaşdırılıb.